# YALAN

## İdrakı olan ona inanmaz

Bu konkret cavab o vaxtdan yaddaşıma həkk olundu və illər keçdikcə onun mahiyyətini daha dərindən dərk etməyə başladım. Hər birimiz yaşadığımız cəmiyyətin üzvüyük və ətrafımızda baş verən hadisələrə biganə qalmağa mənəvi haqqımız yoxdur. Elm inkişaf edir, texniki tərəqqi geniş vüsət alır, cəmiyyət irəliyə doğru hərəkətdədir. Bununla yanaşı insanlarda mənəvi aşınmalara meyl də güclənir. Yalançıların sayı artır və bir çoxları bunu adi həyat norması kimi qəbul etməyə çalışır. Bu barədə düşünəndə qulağımızda müasirimiz olmuş, görkəmli satirik Baba Pünhanın aşağıdakı beyti səslənir:

*Hər atdığımız addım əgər bir yalan isə,*
*Bir gün qara torpaq bezəcəkdir izimizdən.*

Qələmə aldığım yazıda mövzu ilə bağlı şəxsi müşahidə və qənaətlərimdən bəhs etməyə çalışacağam.

1970-ci ilin yanvar ayı idi. Hər gün avtobusla oxuduğum ali məktəbə gedirdim. Qonşuluqda kirayədə yaşayan cavan oğlan da hər iki əlində qara meşin çanta tez-tez mənimlə yol yoldaşı olurdu. Çantaların hər birində üç ədəd litrlik şüşə balon var idi. Onunla maraqlandım. Balonlarda bal olduğunu söylədi. Axı hər gün bu qədər balı haradan gətirdiyini soruşdum. Qımışıb gülməyə başladı və dedi:

- Ay tələbə, sən belə şeyləri bilməzsən. Bu cür balı hazırlamağın sadə qaydası var. Şəkər tozu alıb qaynadıram və sonra ona zağ, arı pətəyinin puçalından (içi boş şanlarından) əlavə edirəm. Alınan məhsul bala çox oxşayır və onu bal adı ilə satıb günümü keçirirəm.

Mən ona günah işlətdiyini, haram yolla pul qazandığını söylədikdə, müsahibim: Ay tələbə, elə deyil, - dedi, - birinci mən bu iş üçün zəhmət çəkirəm, ikincisi də satdığımın bal olmadığını dilimlə izhar edirəm.

- Bu necə olur? – deyə soruşduqda, bal alverçisi bildirdi:

- Müştərilərim əsasən qadınlardır. Mən bir-bir evləri gəzib and içib deyirəm:

- Bacı canı, bal deyil, qızıldır. Görürsən, dilimlə bildirirəm ki, satdığım bal deyil, onlar da görür ki, bu qızıl da deyil. Ondan sonra özləri bilərlər.

Doğrusu, Arif adlı bu gənc hiylə işlətdiyini, camaata kələk gəldiyini çox yaxşı bilirdi və öz ağlı dairəsində günah əməlinə haqq qazandırmağa çalışırdı. Ancaq həmin gəncin sonrakı taleyi heç də yaxşı olmadı, tutuldu və haram yolla qazandıqları köməyinə çatmadı.

Müqəddəs «Quran»ın «Nəhl» surəsinin 94-cü ayəsində deyilir: «Bir-birinizə məkr və hiylə gəlmək üçün and içməkdən istifadə etməyin ki, müsəlmanlığı möhkəmlədəndən sonra ayağınızı bu yoldan sürüşdürər və Allahın yolundan qaldığınız üçün sizə əziyyətlər dadızdırar və sizin üçün böyük əzab olar» (Ə.Əhmədov. Nikatül-Quran, I kitab, Bakı-1994, səh-45). Ayədə yalandan and içib öz yalan sözünü doğru kimi təqdim edənlər haqqında söhbət gedir. Yalandan and içən adam Allahın yolundan çıxmış hesab olunur. İslam dinində yalan danışmaq ən böyük günahlardan sayılır. Çünki həyatda baş verən bir çox mənfiliklərin, eybəcərliklərin kökündə yalan dayanır. Pis işi görməyə hazırlaşan şəxs əvvəlcədən öz düşüncəsi daxilində nəsə ona toxuyur, yalandan maya hazırlayır.

Ulu peyğəmbərimiz Məhəmməd (s) ömründə dilinə yalan söz gətirmədi, həmişə düz danışdığına görə hələ gəncliyində Məkkə camaatı arasında Əmin (inanılmış) ləqəbini qazandı. İnsanlıq dünyasının günəşi, birinci imamımız Həzrət Əlinin kəlamlarında deyilir: «Yalan danışmaq xəyanətdir. Yalançılıqdan alçaq xasiyyət yoxdur. Yalançının qəlbində məhəbbət olmaz. Yalançı namərd olar və s.»

Gəlin olduqca qısa və dərin məna ifadə edən kəlamlardan birincisinin düşüncəmiz dairəsində yozumuna diqqət yetirək. Bəli, yalan danışan ilk növbədə özünə xəyanət edir, günah işlədir. Ulu Tanrıya xəyanət edir, çünki Rəbbimiz dili düz danışmaq, yaxşı sözlər söyləmək üçün insanlara bəxş edib. Yalançılar dilinin və əməlinin ucundan ətrafdakıların nifrətini qazanır. Xalqın inamını qırır. Riyakarlar qadir Alllahın qərar verdiyi son haqq-hesab – Qiyamət gününə də qaralmış üzləri ilə gedirlər.

Bir il əvvəl baş verən hadisədir. Lerik-Bakı marşurut avtobusu ilə paytaxta gəlirdim. Qabaq oturacaqda əyləşmişdim. Sürücünün mobil telefonu zəng çalmağa başladı və şəhərdən danışan avtobusun haradan gəldiyini soruşurdu. Yəqin ki, avtobusda olan





*Bu hadisə 25-30 il əvvəl olmuşdur. O vaxt nüfuzlu qəzetlərin birində həmkarlar ittifaqı sistemində çalışan görkəmli hüquqşünas barədə məqalə verilmişdi. Neçə-neçə insanın pozulmuş hüququnun bərpasında böyük əməyi olmuş hüquqşünasın işi təqdir olunmaqla bu şəxsə bir neçə sualla müraciət edilmişdi. Suallardan biri belə idi: «Həyatda nəyə nifrət edirsiniz?» Hüquq müdafiəçisinin cavabı qısa olmuşdu: «Biganəliyə».*

qohumunun yolunu gözləyirdi. Sürücü – Şıxova yaxınlaşırıq – söyləyib telefonu söndürdü.

Deyilənləri aydınca eşitdiyimə görə cavan sürücüyə müraciət etdim:

- Ay oğul, bura Ələtdir, hələ Şıxova axı çox qalır.

- Dayı, nə fərqi var ki?

- Bala, fərqi çoxdur, birincisi, dilini günaha batırırsan, yalan danışırsan. İkincisi, Ələtlə Şıxovun arasında xeyli məsafə fərqi var. Maşınımız bu arada xarab ola bilər. Siz isə şəhərdə avtobusun yolunu gözləyən adamı aldadırsınız.

Mükalimədən göründüyü kimi sürücünün yalan söyləməkdə heç bir maddi marağı yoxdur. Sadəcə danışığının mahiyyətini dərk edə bilmir və buna adi hal kimi baxır. Bəlkə də hər gün ona gələn zənglərə bu sayaq cavab verir.

Dünyanın dahi söz sərrafları yaratdıqları bədii nümunələrdə insanları paklığa, ülviliyə, doğru söz söyləməyə çağırmış, yalanı, yalançılığı, riyakarlığı həmişə pisləmişlər. Böyük N.Gəncəvi «Xosrov və Şirin» əsərinin girişində yazır:

*Var doğru yazmağa, madam ki, imkan,*
*Niçin gəlsin gərək ortaya yalan?!*
*Qiymətdən salmışdır sözü yalanlar.*
*Doğrunu danışan möhtəşəm olar.*
*Dedi sübhi-sadıq çünki doğrunu,*
*Dünyalar qızıla tutdurdu onu.*
*Sərv də qaldırmış düzlük bayrağı,*
*Onunçün həmişə göydür yarpağı.*

Hind xalqının dahi sənətkarı Ə.X.Dəhləvinin yalana münasibəti belədir:

*Yalana inanmaz idrakı olan,*
*Şübhəsiz yerimiz dünyada yalan.*

Fərdi qaydada apardığım soğru zamanı – «Yalan danışmağı günah əməl hesab edirsinizmi?» – sualıma cavab verən 30 nəfərdən ancaq 7-si bəli, qalanları isə bilmirik və ya «yox» cavabı verdilər. Nəticədən aydın görünür ki, cəmiyyət üzvləri arasında müqəddəs dinimizin hər bir müsəlman üçün vacib saydığı əməllərin təbliği və təşviqi günün tələbləri səviyyəsində deyildir. Bu da insanların mənəvi cəhətdən yoxsullaşmasına səbəb olur. Yalan danışmaq o qədər adiləşib ki, çoxları bu eybəcər əməli həyat norması kimi qəbul etmək istəyir. İş o yerə gəlib çatıb ki, ölkəmizdə istehsal olunan bəzi malların üstündə xarici ölkə mallarının etiketləri vurulmaqla satılır (məsələn, Binə yarmarkasında yerli sexdə tikilən kostyumun üzərində Polşada hazırlanması barədə etiket vardı). Bir anlığa fikirləşirəm ki, bu cür işləri görənlər öz şəxsiyyət vəsiqələrində atalarının adları, soyadları əvəzinə hər hansı italyan, fransız və ya alman adlarının yazılmasına razılıq verərlərmi!? Əlbəttə yox! Onda qoy elələri tutduqları əməldən xəcalət çəksinlər, müstəqil Azərbaycan Respublikasının inkişafı naminə halallığa tərəf dönsünlər, riyadan uzaqlaşsınlar.

«Bi-bi-si» radiosunu dinləyirdim (7.XII.2006). Müxbir BDU-nun jurnalistika fakültəsinin tələbələrindən üç qızla müsahibə aparırdı. Tələbələrə verilən suallardan biri belə idi. Jurnalistlik peşəsini nə üçün seçmisiniz? Qızlardan biri arzusunu belə izah etdi:

- Yalanlardan xoşum gəlir, jurnalistlərin çoxu yalan danışmaqla, yalandan uydurduğu şeylər barədə yazmaqla məşğuldur. Ona görə də mən bu peşəni seçmişəm.

Doğrusu, Azərbaycanın ən nüfuzlu ali məktəbinin jurnalistika fakültəsinin tələbəsinin belə cavab verməsi məni təəssüfləndirməklə bərabər, həm də təəccübləndirdi. Biz mətbuata həmişə həqiqətin carçısı kimi baxmışıq. Yalan yazan və ya yalan yazmağa hazırlaşan müxbirin nə özünün, nə də işlədiyi mətbuat orqanının cəmiyyətdə hörmət və nüfuzu

ola bilməz, özü də axırda camaatı bir neçə dəfə aldadan yalançı çobanın gününə düşər.

Mənəvi tərbiyənin kökü ailədən gəlir. Hansı ailədə uşaqlar düzlük, doğruçuluq ruhunda tərbiyə olunursa, valideynlər əməli hərəkətləri ilə övladlarına nümunə ola bilirsə, həmin ailələrdə böyüyənlərin əksəriyyəti yalan danışmaqdan uzaq olur.

Bu yaxınlarda qonşu kənddə ömrünün 85-ci baharını yaşayan Əhməd kişi ilə görüşdüm. Söhbət əsnasında övladları barədə soruşdum. Həyatının əsas mənasını əməkdə, zəhmətdə tapan qoca balalarından razılığını bildirdi. Onun dörd oğlu var, hamısı da ali təhsillidir. Biri kənd məktəbində müəllim işləyir, üçü isə Bakıda iqtisadiyyatın müxtəlif sahələrində çalışır. Oğlanlarınızın ən çox hansı cəhəti sizi razı salır? – sualıma Əhməd kişi belə cavab verdi:

- Ömrüm boyu qoyun-quzu, mal-qara saxlamaqla, əkin-biçinlə məşğul olmuşam. Heç vaxt yalan danışmamışam, yalan danışanlardan zəhləm gedir. Oğlanlarıma da uşaq yaşlarından təlqin etməyə çalışmışam ki, dillərinə yalan söz gətirməsinlər. Yalan danışan böyük günah sahibidir. Yalançı çox danışan olur. Huşu yerində olmur, eyni hadisəni hər dəfə bir cürə danışır. Həmin şəxs gec-tez cəmiyyət içərisində nüfuzdan düşür, insanların ona bəslədiyi inamı itirir. Övladlarımdan ən böyük razılığım odur ki, nəsihətlərimə əməl ediblər, həmişə düz danışırlar, kiməsə kələk gəlməyə çalışmırlar. Ulu Tanrı zəhmət çəkən hər bir insanın ruzisini yetirəcək. Ancaq imanımızı qorumaq, axirət dünyasına paklıqla, xoş əməllərlə qovuşmaq isə bizdən asılıdır.

***Həyati təcrübələr göstərir ki, maddi zənginləşmə və ya onun əksi, yəni maddi yoxsullaşma bəzən qısa zaman dairəsində də baş verə bilir. Ancaq mənəvi zənginləşmənin yolu nisbətən uzundur. Bunun ilkin mənbəyi nütfədirsə, sonrakı mərhələlərdə ailə, məktəb və ictimai mühitin rolu olduqca böyükdür. Ona görə də hər birimiz yaşadığımız cəmiyyətin üzvü kimi özümüz səhv hərəkətlər etməməyə çalışmaqla bərabər, ətrafdakılarımızı da pisliklərdən, o cümlədən ən böyük qəbahət sayılan yalançılıqdan çəkindirməliyik. Çünki bu bizim insanlıq borcumuzdur.***

**Hacı BAYRAM**